**“Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin altıncı hissəsində, 14-cü maddəsinin dördüncü hissəsində, 15-ci maddəsinin birinci və üçüncü hissələrində, 16-cı maddəsinin birinci hissəsində, 18-ci maddəsinin birinci hissəsində və beşinci hissəsində (birinci halda), 19-cu maddəsinin birinci hissəsində, 22-ci maddəsinin ikinci və dördüncü hissələrində, 23-cü maddəsinin beşinci və yeddinci hissələrində, 26-cı maddəsinin dördüncü hissəsində, 29-cu maddəsinin üçüncü, altıncı və yeddinci hissələrində, 30-cu maddəsinin üçüncü hissəsində, 31-ci maddədə, 35-ci maddəsinin ikinci hissəsində, 38-ci maddəsinin birinci və dördüncü hissələrində və 40-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 23-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması qaydalarını təsdiq etsin;

həmin Qanunun 43-cü maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatı qaydası, habelə həmin qeydiyyatı həyata keçirən icra hakimiyyəti orqanı barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

*“Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun 19-2-ci maddəsinin yeddinci (ikinci halda) və 21-ci maddəsinin altıncı hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[1]

*həmin Qanunun 5-ci maddəsinin üçüncü və beşinci, 6-cı maddəsinin ikinci, 7-ci maddəsinin ikinci və dördüncü, 8-ci maddəsinin üçüncü, 9-cu maddəsinin üçüncü, 10-cu maddəsinin ikinci, 10-1-ci və 11-ci maddələrinin üçüncü, 14-cü maddəsinin ikinci, 15-ci maddəsinin səkkizinci, 15-1-ci maddəsinin üçüncü, 15-2-ci maddəsinin ikinci, 19-1-ci maddəsinin birinci, üçüncü (birinci halda), 19-2-ci maddəsinin birinci, altıncı (hər iki halda), yeddinci (birinci halda), 19-3-cü maddəsinin altıncı (hər iki halda), 19-4-cü maddəsinin üçüncü (hər iki halda), 23-cü maddəsinin dördüncü, 25-ci maddəsinin yeddinci, 28-ci maddəsinin birinci, 29-cu maddəsinin doqquzuncu, 40-2-ci maddəsinin birinci və 43-cü maddəsinin altıncı hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*[2]

həmin Qanunun 21-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və digər əlaqəli mərkəzi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri hüdudlarında həyata keçirirlər;

həmin Qanunun 1-ci maddəsinin on birinci abzasında , *15-1-ci maddəsinin dördüncü hissəsində, 19-2-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 25-ci maddəsinin ikinci, beşinci və altıncı hissələrində, 34-1-ci maddəsinin birinci hissəsinin on birinci bəndində* nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini, habelə Qanunun mətni üzrə nəzərdə tutulmuş “yol təsərrüfatı orqanı”nın səlahiyyətlərini (dövlət yolları barəsində) Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi həyata keçirir;[3]

həmin Qanunun 18-ci maddəsinin beşinci hissəsində (ikinci halda) nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

*həmin Qanunun 25-1-ci maddəsinin ikinci abzasında birinci halda nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini respublika və yerli əhəmiyyətli avtomobil yollarına münasibətdə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin təqdimatı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti, digər dövlət avtomobil yollarına münasibətdə yerli icra hakimiyyəti orqanları (şəhər rayonu icra hakimiyyətləri istisna olmaqla), qəsəbə və kəndlərin ərazisində yerləşən bələdiyyə avtomobil yollarına münasibətdə müvafiq bələdiyyələrin, özəl avtomobil yollarına münasibətdə isə mülkiyyətçilərin rəyi nəzərə alınmaqla yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*[4]

*həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsinin ikinci bəndində və 15-1-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, digər sahələrdə isə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyəti*

*başçıları yanında Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma idarələri həyata keçirir;*[5]

*həmin Qanunun 1-ci maddəsinin birinci hissəsinin on doqquzuncu bəndində, 10-1-ci maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin altıncı hissəsinin birinci cümləsində və on birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və yerli icra hakimiyyəti orqanları öz balanslarında olan avtomobil yollarına münasibətdə həyata keçirirlər;*

*həmin Qanunun 19-1-ci maddəsinin üçüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;*[6]

*həmin Qanunun 19-2-ci maddəsinin yeddinci hissəsində "qurum" dedikdə "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.*[7]

3. Avtomobil yollarında yol göstəricilərinin yerləşdirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.[8]

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 10 mart 2000-ci il
299

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 dekabr 2004-cü il tarixli 159 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 12, maddə 1005**)
2. 30 oktyabr 2009-cu il tarixli **171** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 1 noyabr 2009-cu il, 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 784**)
3. 16 yanvar 2014-cü il tarixli **93** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 24 yanvar 2014-cü il, 14 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 1, maddə 21**)
4. 20 oktyabr 2014-cü il tarixli **299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 21 oktyabr 2014-cü il, 228 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1184**)
5. 23 iyun 2016-cı il tarixli **972** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1068**)
6. 11 dekabr 2017-ci il tarixli **1719** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2287**)
7. 31 avqust 2018-ci il tarixli **257** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1707**)
8. 29 noyabr 2019-cu il tarixli **869** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 noyabr 2019-cu il, 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1717**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 20 oktyabr 2014-cü il tarixli **299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 21 oktyabr 2014-cü il, 228 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1184**) ilə 2-ci hissəyə ikinci abzas əlavə edilmişdir və ikinci-altıncı abzaslar müvafiq olaraq üçüncü-yeddinci abzaslar hesab edilmişdir.

11 dekabr 2017-ci il tarixli **1719** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2287**) ilə 2-ci hissənin ikinci abzasında "**21-ci maddəsinin altıncı hissəsində**" sözləri "**19-1-ci maddəsinin birinci, üçüncü (birinci halda), 19-2-ci maddəsinin birinci, altıncı (birinci halda), yeddinci (hər iki halda), 19-3-cü maddəsinin altıncı (birinci halda), 19-4-cü maddəsinin üçüncü (birinci halda) və 21-ci maddəsinin altıncı hissələrində**" sözləri ilə əvəz edilmişdir.

31 avqust 2018-ci il tarixli **257** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1707**) ilə 2-ci hissənin ikinci abzasında "**19-1-ci maddəsinin birinci, üçüncü (birinci halda), 19-2-ci maddəsinin birinci, altıncı (birinci halda), yeddinci (hər iki halda), 19-3-cü maddəsinin altıncı (birinci halda), 19-4-cü maddəsinin üçüncü (birinci halda)**" sözləri "**19-2-ci maddəsinin yeddinci (ikinci halda)**" sözləri ilə əvəz edilmişdir.

[2] 20 oktyabr 2014-cü il tarixli **299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 21 oktyabr 2014-cü il, 228 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1184**) ilə 2-ci hissədə üçüncü abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin üçüncü və beşinci hissələrində, 6-cı maddəsinin ikinci hissəsində, 7-ci maddəsinin ikinci və dördüncü hissələrində, 8-ci maddəsinin üçüncü hissəsində, 9-cu maddəsinin üçüncü hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 11-ci maddəsinin üçüncü hissəsində, 14-cü maddəsinin ikinci və səkkizinci hissələrində, 23-cü maddəsinin dördüncü hissəsində, 28-ci maddəsinin birinci hissəsində, 29-cu maddəsinin on üçüncü və on dördüncü hissələrində və 43-cü maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

11 dekabr 2017-ci il tarixli **1719** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2287**) ilə 2-ci hissənin üçüncü abzasında "**19-2-ci maddəsinin birinci**" sözləri "**19-2-ci maddəsinin altıncı (ikinci halda)** " sözləri ilə əvəz edilmişdir, "**23-cü maddəsinin**" sözlərindən əvvəl "**19-3-cü maddəsinin**

**altıncı (ikinci halda), 19-4-cü maddəsinin üçüncü (ikinci halda),"** sözləri əlavə edilmişdir.

31 avqust 2018-ci il tarixli **257** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1707**) ilə 2-ci hissənin üçüncü abzasda "**19-2-ci maddəsinin altıncı (ikinci halda), 19-3-cü maddəsinin altıncı (ikinci halda), 19-4-cü maddəsinin üçüncü (ikinci halda)**" sözləri "**19-1-ci maddəsinin birinci, üçüncü (birinci halda), 19-2-ci maddəsinin birinci, altıncı (hər iki halda), yeddinci (birinci halda), 19-3-cü maddəsinin altıncı (hər iki halda), 19-4-cü maddəsinin üçüncü (hər iki halda)**" sözləri ilə əvəz edilmişdir.

29 noyabr 2019-cu il tarixli **869** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 noyabr 2019-cu il, 266 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1717**) ilə 2-ci hissəsinin üçüncü abzasında "**on ikinci**" sözləri "**doqquzuncu**" sözü ilə əvəz edilmişdir.

[3] 10 dekabr 2004-cü il tarixli **159** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 12, maddə 1005**) ilə 2-ci bəndin üçüncü və dördüncü abzaslarında "**Azəravtoyol" Dövlət Şirkəti**" sözləri "**Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2014-cü il tarixli **299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 21 oktyabr 2014-cü il, 228 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1184**) ilə 2-ci hissədə beşinci abzasa "**on birinci abzasında**" sözlərindən sonra "**, 15-1-ci maddəsinin dördüncü hissəsində, 19-2-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 25-ci maddəsinin ikinci, beşinci və altıncı hissələrində, 34-1-ci maddəsinin birinci hissəsinin on birinci bəndində**" sözləri əlavə edilmişdir.

[4] 16 yanvar 2014-cü il tarixli **93** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 24 yanvar 2014-cü il, 14 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 1, maddə 21**) ilə 2-ci hissəsinin beşinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və altıncı abzas əlavə edilmişdir.

[5] 23 iyun 2016-cı il tarixli **972** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1068**) ilə 2-ci hissəsinin səkkizinci abzasına "**Nəqliyyat Nazirliyi**" sözlərindən sonra "**, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə, müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyəti başçıları yanında Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma idarələri**" sözləri əlavə edilmişdir.

[6] 20 oktyabr 2014-cü il tarixli **299** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 21 oktyabr 2014-cü il, 228 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 10, maddə 1184**) ilə 2-ci hissədə yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və səkkizinci, doqquzuncu və onuncu abzaslar əlavə edilmişdir.

11 dekabr 2017-ci il tarixli **1719** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2287**) ilə 2-ci hissənin onuncu abzasına "**hissəsində**" sözündən sonra **"(ikinci halda)"** sözləri əlavə edilmişdir.

[7] 11 dekabr 2017-ci il tarixli **1719** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2287**) ilə 2-ci hissənin onuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda on birinci abzas əlavə edilmişdir.

[8] 30 oktyabr 2009-cu il tarixli **171** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 1 noyabr 2009-cu il, 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 784**) ilə 3-cü bənd əlavə edilmişdir.